Bayram sərgisi

1987-ci il ölkəmizdə əlamətdar illərdən biri kimi tarixdə iz buraxdı. Beləki, Böyük Oktyabrın 70 illiyi münasibətilə ikinci **Ümumittifaq Xalq Yaradıcılığı Festivalı** keçirildi. Bununla əlaqədar olaraq Naxçıvan MSSR Mədəniyyət Nazirliyi Xalq Yaradıcılığı və Mədəni-Maarif işi üzrə Elmi-Metodiki Mərkəz maraqlı tədbirlər keçirmişdir.

Muxtar Respublika ərazisində yaşayan təsviri və dekorativ tətbiqi sənət həvəskarlarının əl işlərindən ibarət sərgilər açılmışdır. Müxtəlif baxış-müsabiqələr və sərgilərdə 500-dən artıq iştirakçı cəlb olunmuşdur.

Tədbirlərlə əlaqədar olaraq keçən il Muxtar Respublikamızın paytaxtı Naxçıvan şəhərində şəhər və rayonların mədəniyyət şöbələrinin topladıqları həvəskar rəssamların əl işləri sərgisi açılmışdır. Aprel may aylarında Muxtar Respublika Mədəniyyət Sarayında və 1№-li şəhər mədəniyyət evində sərgilər açılmışdır. İki aydan artıq davam edən həmin sərgilərdə həvəskar rəssamların müxtəlif mövzulu əsərlərinə yüzlərlə tamaşaçı baxmışdır.

Rəy kitablarına Naxçıvan, Ordubad və İliç rayon həvəskar rəssamlarının ünvanına xoş sözlər yazılmışdır. Sərgidə yüzdən artıq rəsm, rəntkarlıq və dekorativ-tətbiqi sənət nümunələri nümayiş olunmuşdur. Həmin tədbirdə naxçıvanlı rəssamlardan Uşaq İncəsənət Məktəbinin şagirdlərindən Anar Hüseynovun "Mis qaqblar" natürmortu, Asiman Tağıyevin "Qırmızı papaq" nağılına illüstrasiya, Möhsün Qasımovun "Ala toranlıq", Qalib Əsədovun "Çaparlar" tablosu, Nurlan Bağırovun "Balaca çoban" etüdü, Musa Bağırovun ondan artıq rəsm və rəntkarlıq işləri o cümlədən "Yağışdan sonra", "Küpə", "Payız" və sairə, tablolar tamaşaçıların rəğbətini qazanmışdır.

Sərgidə yaşlı nəsl həvəskar rəssamlarından Həmzə Sadiqovun yağlı boya ilə çəkdiyi rəngarəng lövhələri sərgiyə gələnlərin diqqətini cəlb etmişdir. Həmin tablolardan "Baharın gəlişi", "Batabat yaylağı", "Məktəbli qız" və başqa rəntkarlıq tabloları tamaşaçıların rəğbətinə səbəb oldu.

Sərgidə İliç rayonundan Cəfərsadıq Əliyevin "Quşlar", "Gölün kənarında", "Küpə ilə gitara", "Şaftalı ilə güllər" və sairə akvarel boyakarlıq işləri böyük ustalıqla işlənmişdir.

Bundan başqa həmin rayondan Kalxozlararası Tikinti İdarəsinin fəhləsi Bəhram Abdullayevin ağacdan yonub düzəltdiyi müxtəlif fiqurlar canlı və cazibədar olmuşdur. Rayonun Maxta kənd sakini İbrahim Allahverdiyevin rəsmləri də ustalıqla çəkilərək öz kəndlərini əks etdirmişdir.

Sərgidə Ordubad rayon həvəskar rəssamlarının işləri rayonun meyvəli bağlarından, sərin bulaqlarından və zirvəsi qarlı dağlarından geniş göstərilmişdir. Beləki Hikmət Əliyevin "Biz sülh istəyirik" mövzusunda olan plakat işi, müasir baxımdan diqqəti cəlb etməkdə idi. Bundan başqa onun quaşla çəkdiyi "Kosmosun hərbləşdirilməsinə yol verməyək" mövzulu plakatı sərgiyə gələnlərin marağına səbəb olmuşdur. Nüsrət Əsgərov isə sulu akvarel boya və karandaşla müxtəlif mövzulu əl işləri ilə sərgiyə gəlmişdir. Onun "Qocanın portreti", "Meyvələr", "Təndir başında", "Ayrı gecə", "Qış mənzərəsi" və başqa işləri tamaşaçıların rəğbətini qazanmışdır.

Sərgidə Kamil Nəcəfov "Meyvələr" natürmotu, "Qız" portreti, Ordubadda "Göygöl" və başqa rəntkarlıq işlərindən sərgiyə gələnlər razılıqlarını bildirmişlər. Yaşar İbrahimov miniatür qrafik rəsmi olan "İnsan adi daşdan saray yaradır" və Cabir Cabbarov isə metal üzərində döymə işlərindən ibarət müxtəlif mövzulu qrafik işlər işləmişlər.

Naxçıvan şəhərində açılan həvəskar rəssamların baxış sərgisi zəhmətkeşlərin marağına səbəb olmuş, ideya mədəni səviyyənin yüksəlməsinə və estetik dünyagörüşünün inkişafına təsir etmişdir.

Sərgidəki ən layiqli işlər seçilərək Bakıya göndərilmiş və oradakı Dövlət Şəkil Qalereyasında iyun-iyul aylarında nümayiş olunmuşdur. Həmin sərgidən sonra ən yaxşı əl işləri ölkənin paytaxtı Moskva şəhərinə göndərilmişdir.

Moskvadakı Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin 3№-li pavilyonunda noyabr ayında açılaraq paytaxt zəhmətkeşlərini tərəfindən rəğbətlə qarşılanmışdır. Həmin sərgidə fərqlənən rəsm həvəskarlarından bir qurupu SSR Mədəniyyət Nazirliyinin fəxri fərmanları ilə təltif olunmuşlar. Bütün bunlar biz mədəniyyət işçilərini sevindirməklə Azərbaycan mədəniyyətinə verilən layiqli qiymət idi.

Naxçıvanda açılan sərgi haqqında Muxtar Respublika radio və televiziyasında və "Sovet Naxçıvanı" vilayət qazetində ətraflı məlumatlar verilmişdir. Bundan başqa Bakıda və Moskvada açılan həvəskar rəssamların sərgisi haqqında isə Azərbaycan radio və televiziyasında, "Bakı", "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət", "Mədəni-maarif işi" və başqa mətbuat orqanlarının səhifələrində də yazılaraq bildirilmişdir.

Feyruz Bağırov

Naxçıvan MR Mədəniyyət Nazirliyi Elmi-Metodik mərkəzin rəssam metodisti.

Naxçıvan radiosu, 7-8 oktyabr 1987-ci il.